1.qxd 11.08.2017 14:10 Page 1

"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

Heydər Əliyev - xalq birliyi əbədidir!

AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 14 (1007) | 10 avqust 2017-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

İlham Əliyev paytaxtın keçmiş "Sovetski" ərazisində yeni yolların açılışında iştirak edib

Prezident İlham Əliyev Bakının Yasamal rayonunun keçmiş "Sovetski" ərazisində yenidən qurulan "Statistika" dairəsinin, Nəriman Nərimanov prospektinin və Abdulla Şaiq küçəsinin açılışında iştirak edib.

Prezident İlham Əliyev yolların texniki göstəricilərini əks etdirən stendlərə baxdı.

"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına Bakı şəhərinin keçmiş "Sovetski" ərazisində yeni yolların çəkilməsi, yaşıllaşdırma və abadlıq işlərinin aparılması" layihəsi çərçivəsində görülən işlər barədə ətraflı məlumat verdi.

Bildirildi ki, 2016-cı ilin avqustundan icrasına başlanan layihəyə uyğun olaraq 26 hektar ərazidə yolların salınması və abadlıq işlərinin aparılması həyata keçirilib. İşlər yüksək keyfiyyətlə, texnoloji ardıcıllığa uyğun, həm də maksimum qısa müddətdə icra olunub. Buraya 23 hektar sahədə yaşıllaşdırma və abadlıq işlərinin, 3 hektar sahədə isə avtomobil yollarının tikintisi işləri daxildir. Ümumi uzunluğu 7 kilometrdən çox olan Nəriman Nərimanov prospekti, Abdulla Şaiq, Balababa Məcidov, Mirzəağa Əliyev və Füzuli küçələrinin yenidən qurulması artıq yekunlaşıb.

İlham Əliyevin və Prezident Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü olub

Rəsmi qarşılanma mərasimindən sonra Prezident İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü olub.

Dövlət başçıları görüşdə çıxış etdilər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:

-Hörmətli Qurbanqulu Məlikquluyeviç.

Azərbaycana xoş gəlmisiniz. Sizi səmimiyyətlə salamlayıram. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz Türkmənistan–Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafında çox mühüm addım olacaq.

Bizim xalqlarımızı tarix birləşdirir. Biz əsrlər boyu bir yerdə yaşamışıq, dostluq etmişik, qardaşlıq şəraitində yaşamışıq. Bu gün isə iki müstəqil dövlət kimi uğurla inkişaf edirik. Sizin səfəriniz bizim əlaqələrimizə yeni dinamika gətirəcək. Biz bir sıra sahələrdə çox uğurlu əməkdaşlıq edirik və bu əməkdaşlıq dərinləşək. Siyasi, iqtisadi, humanitar, mədəniyyət, nəqliyyat və digər sahələrdə inkişaf və əməkdaşlıq üçün çox yaxşı imkanlar var.

Sizi bir daha səmimiyyətlə salamlayıram, "Xoş gəlmisiniz" deyirəm. Əminəm ki, səfəriniz çox uğurlu olacaq.

İlham Əliyev Belarus Dövlət Sərhəd Komitəsinin sədrini qəbul edib

Prezident İlham Əliyev Belarus Respublikası Dövlət Sərhəd Komitəsinin sədri Anatoli Lapponu qəbul edib.

Anatoli Lappo Bakıda 1990-cı ildə olduğunu qeyd edərək paytaxtımıza budəfəki səfəri zamanı inanılmaz dərəcədə inkişaf gördüyünü dedi. O, sərhədçi olaraq öz xidmətinə Naxçıvanda zastava rəisi kimi başladığını məmnunluqla vurğulayaraq dedi: "Mən Naxçıvanda zastava rəisi vəzifəsində çalışarkən Azərbaycanın əfsanəvi oğlu Heydər Əliyevlə bir neçə dəfə görüşmək şərəfinə nail olmuşam və o illəri xoş təəssüratla xatırlayıram".

Prezident İlham Əliyev xoş sözlərə görə məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı ötən dövr ərzində Naxçıvanda böyük inkişaf proseslərinin getdiyini vurğulayaraq, qonağın ölkəmizə bu səfərinin onun xidmət etdiyi yerləri yenidən görmək üçün yaxşı imkan yaratdığını dedi.

Görüşdə Azərbaycan-Belarus ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, iki dövlətin sərhəd xidmətləri arasında əməkdaşlığın əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verdiyi bildirildi.

İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib

Qaxda Prezident İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib.

Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.

Prezident İlham Əliyevin giriş nitqi

- Dünən mən Balakən, Zaqatala, Qax rayonlarında səfərdə olmuşam. Rayonlarda görülən işlərlə tanış olmuşam, əlavə tapşırıq vermişəm və bir daha görürəm ki, bu rayonlarda son illər ərzində çox sürətli inkişaf gedir. Bir çox sosial, infrastruktur, energetika, nəqliyyat, kənd təsərrüfatı, emal sənayesi obyektlərinin açılışlarında iştirak etmişəm. Dünənki bütün tədbirlər əslində, son illər ərzində bu bölgədə və ümumiyyətlə, Azərbaycanda görülən işləri bir daha əyani şəkildə təqdim edir.

Nəinki bu üç rayonda, bütün şimal-qərb zonasında çox sürətli inkişaf gedir. Bu zonaya həm dövlət, həm özəl sektor tərəfindən çox böyük investisiyalar qoyulur. Ancaq əlbəttə ki, burada əsas investisiya qoyuluşunun payı dövlətin üzərinə düşür. Son illərdə bu bölgəyə yolların, elektrik stansiyalarının tikintisi, qazlaşdırma, su təchizatı, suvarma məsələləri, sosial obyektlərin inşası ilə bağlı Azərbaycan büdcəsi hesabına çox böyük investisiyalar qoyulubdur. Məktəblər, xəstəxanalar, sosial obyektlər, idman kompleksləri, turizm obyektləri – bir sözlə, bu gün ölkəmizin şimal-qərb zonası öz sürətli inkişaf dövrünü yaşayır, perspektivləri də çox müsbətdir. Əminəm ki, verilən tapşırıqların yerinə yetirilməsi nəticəsində gələcək illərdə bu müsbət dinamika daha da güclənəcəkdir.

Bugünkü müşavirə bu bölgəyə xas olan ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafına həsr edilib. Tütünçülük, baramaçılıq, fındıqçılıq bu bölgədə əsrlər boyu inkişaf etmişdir. Bu sahələrin ölkəmizdə çox böyük və zəngin ənənələri vardır. Burada mövcud olan torpaq şəraiti, torpağın münbitliyi, iqlim, coğrafi vəziyyət, xarici bazarlara yaxın olmağımız və qədim İpək Yolu üzərində yerləşməyimiz – bütün bunlar bu sahələrin inkişafına təkan vermişdir.

1.qxd 11.08.2017 14:11 Page 2

Görülmüş işlər təhlil olundu, qarşıda

Rayon icra hakimiyyəti başçısı yanında keçirilən növbəti şura iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə iyulun 12-də Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarım ilinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasından irəli gələn məsələlərin Ağstafa rayonunda həyata keçirilməsinə dair məsələ müzakirə olundu.

Məsələ ilə əlaqədar RİH başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Aydın Hacıyev məruzə etdi.

Məruzəçi qeyd etdi ki, 2017-ci ilin birinci yarısında respublikamız uğurla inkişaf edib, qarşıda duran bütün vəzifələr icra olunub, ölkəmiz daha da güclənib və beynəlxalq əlaqələrimiz daha da dərinləşib. Azərbaycanda bütün sosial-iqtisadi məsələlər uğurla öz həllini tapır, ölkəmizdə təhlükəsizlik tədbirləri yüksək səviyyədədir. Azərbaycan bu bölgədə və dünyada sabitlik məkanı kimi tanınır. Belə bir şəraitdə həm investisiyaların qoyuluşu üçün maraq göstərilir, eyni zamanda, xalqımız rahat yaşayır, əhalimizin rifah halı yaxşılaşır. Azərbaycan xalqı öz gələcəyini təhlükəsizlik, əmin-amanlıq şəraitində qurur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yerlərdə investisiya qoyuluşunun cəlb edilməsi, sənaye zonalarının yaradılması və əhalinin məşğulluğunun artırılması barədə tapşırığına uyğun olaraq Ağstafa rayonunda bir sıra tədbirlər həyata keçirilmişdir. Özündə istehsal və emal müəssisələrini birləşdirən "Karvan-L" EKO Sənaye Parkı fəaliyyətini uğurla davam etdirir. Bu gün sənaye parkında 7 müəssisə, eləcə də kənd təsərrüfatı məhsulları yetişdirilən istixana kompleksi fəaliyyət göstərir. Hazırda sənaye parkının layihəsinə uyğun olaraq istehsal gücü sutkada 500 kv. metr olan keramika dam örtüklərinin istehsalı zavodunun tikintisi işləri davam etdirilir. Gələcəkdə balıqçılığın inkişaf etdirilməsi üçün Həsənsu çayı üzərində işlər aparılır.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində Almaniyanın qabaqcıl şirkətlərinin iştirak etdiyi "Ağstafa Aqroservis" MMC-nin 2-ci mərhələsini təşkil edən Ağstafa taxıl və un məmulatları kombinatının tikintisi işləri sürətlə davam etdirilir. Ağstafa Taxıl və Un Məmulatları İstehsalı Kombinatı 3 zavoddan ibarət olacaq. Bunlar "Toxumluq taxıl emalı", "Taxıl emalı və un istehsalı" və "Çörək və yarımfabrikatlar istehsalı" zavodlarıdır. Layihə çərçivəsində saatda 1 ton istehsal gücünə malik çörək zavodu, 30 min tonluq taxıl, 2 min tonluq un rezervuarları, mədəniyyət mərkəzi, 300 yerlik konfrans zalı, hazır məhsul anbarı, ikimərtəbəli fast fud iaşə obyekti, 140 yerlik yeraltı avtomobil dayanacağı, yem anbarının tikintisi həyata keçirilir. Ümumi sahəsi 2 min kvadratmetr olacaq fast fud iaşə obyektində kompleksin istehsal etdiyi çörək, un və qənnadı məhsulları təqdim ediləcəkdir. "Ağstafa Aqroservis" MMC-nin 2-ci mərhələsinin tikintisi üçün 26 milyon manat investisiya qoyulmuş və tikintinin tam başa çatdırılması üçün əlavə olaraq 13 milyon manat investisiya yatırılması nəzərdə tutulur.

Saloğlu firmasının nəzdində "Modern Mebel Fabriki" və "Venzena Mebel Fabriki" layihələrinin icrası həyata keçirilir. "Venzena Mebel Fabriki"nin layihə smeta sənədləri hazırlanmış, torpaqayırma sənədləri hazırlıq mərhələsindədir, yaxın günlərdə mebel şəhərciyinin tikintisinə başlanılması nəzərdə tutulur.

Ağstafada qədim xalçaçılıq ənənələrinin olması nəzərə alınaraq "Azərxalça" ASC-nin Ağstafa filialı təsis edilmişdir. Tikinti üçün rayon İcra hakimiyyəti tərəfindən şəhərin Hüseyn Arif küçəsində 0.50 ha torpaq sahəsi ayrılmışdır. Layihə üzrə bir mərtəbəli və sahəsi 1246,0 kv. metr olacaq binanın inşaat işləri hazırda başa çatmaq üzrədir. Burada 465,6 kv. metr sahə toxuculuq zalı üçün nəzərdə tutulub. Müəssisə fəaliyyətə başladıqdan sonra 120 nəfər daimi işlə təmin olunacaqdır.

Ağstafa rayonunda yeni iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi, rayonun ixrac potensialını artırır və çoxsaylı yeni iş yerləri yaradır. Rayonda fəaliyyət göstərən "Akkord Tekstil" MMC-nin tikiş fabriki yeni avadanlıqlarla təchiz olunmaqla fəaliyyətini davam etdirir. Fabrikdə ixrac yönlü məhsul istehsalı üçün əlavə olaraq 200 min (ABŞ) dolları həcmində investisiya qoyulmuş və bu istiqamətdə işlər davam etdirilir. Hazırda 120 nəfərin çalışdığı fabrikdə ixrac üçün nəzərdə tutulan məhsulların istehsalı həyata keçirilir. Artıq fabrikin istehsal etdiyi məhsulların Avropa bazarına çıxarılması üçün müqavilələr bağlanmış və məhsullar ixrac olunur. Gələcəkdə məhsul istehsalını çoxaltmaq, işçilərin sayını iki dəfə artırmaq və ixrac məhsullarının çeşidini və həcmini artırmaq üçün tədbirlər görülür.

2017-ci ilin 6 ayı ərzində Ağstafa rayonu üzrə ümumi məhsul buraxılışının həcmi 17.4 faiz artaraq 65.1 milyon manata çatmışdır.

2017-ci ilin yanvar-iyun ayları ərzində yerli gəlirlər üzrə proqnoz 118.0 faiz yerinə yetirilmişdir. Yerli gəlirlər 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 308.0 min manat çox icra olunmuşdur.

ƏƏSMN yanında DSMF-nin Ağstafa rayon şöbəsi 11740 nəfər pensiyaçıya xidmət edir. 2017-ci ilin altı ayı ərzində 315 nəfərə əmək pensiyası təyin edilmişdir, bir nəfərə düşən orta aylıq pensiyanın məbləği rayon üzrə 178.25 manat təşkil edir. 6 ay ərzində əmək pensiyaların maliyyələşdirilməsinə 12.7 milyon manat, müxtəlif növ müavinətlərin ödənilməsinə 363.6 min manat vəsait xərclənmişdir.

DSMF-nin Ağstafa rayon şöbəsi tərəfindən bu ilin 6 ayı ərzində məcburi dövlət sosial sığortanın orta haqqı üzrə proqnoza 108.8 faiz əməl olunmuş və büdcə təşkilatları üzrə daxilolma 110.8 faiz, qeyri büdcə təşkilatları üzrə 83.5 faiz olmuşdur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən toplanan proqnoz tapşırığa 75.9 faiz əməl olunmuşdur. Dövlət Sosial Müdafiə Fondunun Ağstafa rayon şöbəsinin rəhbərliyi proqnoz tapşırıqların yerinə yetirilməsi üçün ciddi tədbirlər görməlidir.

"Azərpoçt" MMC-nin Ağstafa Poçt filialı 2017-ci ilin 6 ayı ərzində plan proqnoz tapşırıqlarını 118.0 faiz yerinə yetirmişdir. Ağstafa Poçt Filialı əhaliyə göstərilən xidmətin keyfiyyətini yüksəltməli və kəndlərdə poçt şöbələri üçün yeni binaların tikintisinin həyata keçirilməsi üçün tədbirlər görməlidir.

2017-ci ilin 6 ayı ərzində 725 nəfər işaxtaran kimi rayon Məşğulluq Mərkəzində qeydiyyata alınmış və 307 nəfər işlə təmin edilmişdir. Ötən dövr ərzində 19 nəfərə işsiz statusu verilmiş və işsizlik müavinəti təyin edilmişdir. Hazırda Məşğulluq Mərkəzində 236 vakant iş yerləri mövcuddur.

Statistik göstəricilərə görə bu ilin 6 ayı ərzində rayonda miqrasiya artımı müsbət saldo ilə nəticələnmiş (gələnlər 63, gedənlər 39, artım +24), təbii artım 170 (doğulanlar 491, ölənlər 321), rəsmi qeydiyyata alınan nigahların sayı 188, boşanmaların sayı (49) bu göstəricinin 26.1 faizini təşkil edir.

Ölkə iqtisadiyyatında xüsusi çəkisi olan kənd təsərrüfatının əsas strateji hədəfi əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. Bu il rayon üzrə 8735 hektar sahədə buğda, 1857 ha sahədə arpa olmaqla cəmi 10592 hektar taxıl səpini həyata keçirilmiş, bu da ötən illə müqayisədə 73 hektar çoxdur, hazırda taxıl biçini davam etdirilir.

Ağstafa rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Cari ilin yanvar-iyun ayları ərzində rayon üzrə kənd təsərrüfatı məhsullarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 945.2 min manat və ya 5.2 faiz artmışdır.

Azərbaycan Respublikasında şəkər çuğunduru istehsalının stimullaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə şəkər çuğundurunun emalı ilə məşğul olan hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərə təhvil verilmiş şəkər çuğundurunun hər tonuna görə onun istehsalçılarına 4 (dörd) manat məbləğində subsidiya ödənilir. Məlumat verim ki, bu il rayonumuzda 500 hektar şəkər çuğunduru əkilmişdir. Bu sahə ilə məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçıları toxumun alınması və hazır məhsulun satılması problemi ilə üzləşməyəcək.

Rayonda yeni iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi, ənənəvi təsərrüfat sahələrinin dirçəldilməsi rayonun iqtisadi potensialını artırır və yeni iş yerləri yaradır. Bu il rayonda 3116 kq barama istehsal olunmuşdur, bu da ötən illə müqayisədə 1203 kq və ya 62.9 faiz çoxdur.

2017-ci ilin altı ayı ərzində Ağstafaçay dəryaçasında kifayət qədər su ehtiyatı yığılmadığından suvarma suyu ilə təminatda müəyyən problemlər yaranmışdır. Hazırda su anbarında 21.0 milyon kub metr suvarma suyu mövcuddur. Ağstafaçay Hidroqovşaq İstismar İdarəsi tərəfindən cari ilin 6 ayı ərzində 6 ədəd selötürən, 2 ədəd suayrıcı qurğular, 1 ədəd dükker və 13 ədəd hidrotexniki qurğular, 6 ədəd hidropostlar, 6.8 km beton kanallar cari və əsaslı təmir edilmiş, eləcə də kanallarda lildən və kol-kosdan təmizlənmə işləri aparılmışdır. Sağ sahil kanalında mütəmadi təmir işləri aparılsa da, kanalın beton üzlüyündə çatlar əmələ gəldiyinə görə su itkisinə yol verilir. Kanalın kəndlərdən keçən hissələrində qanunsuz zibilxanaların olması və həmin zibilin daşınmaması sonda kanala tökülməsinə səbəb olur və xoşagəlməz hallar yaradır.

Ağstafa Suvarma Sistemləri İdarəsi tərəfindən 2017-ci ilin

1.qxd 11.08.2017 14:11 Page 3

duran vəzifələr müəyyənləşdirildi

altı ayı ərzində R-5 kanalında əsaslı təmir və kanalda səviyyəqaldırıcı qurğular əsaslı təmir olunmuş, 11 ədəd hidrotexniki qurğu, 2 ədəd hidropost və 3.1 km kanalda cari təmir, kanalların lildən və kol-kosdan təmizlənməsi həyata keçirilmişdir.

Tovuz Subartezian Quyularının İstismarı İdarəsininin Ağstafa İstismar sahəsi 226 ədəd subartezian quyusunun istismarına xidmət edir. İlin 6 ayı ərzində 36 ədəd subartezian quyusunda cari, 37 ədəd subartezian quyusunda əsaslı təmir işləri aparılıb. Mövcud subartezian quyuları vasitəsilə 3554 hektar əkin sahələrinin suvarılması həyata keçirilmişdir.

Ağstafa rayon Baytarlıq idarəsi tərəfindən rayon ərazisində mövcud olan bütün növ kənd təsərrüfatı heyvanları və quşları arasında müalicə və profilaktik tədbirləri həyata keçirilmiş və heç bir yoluxucu xəstəliklər qeydə alınmamışdır. Rayon ərazisində kəsilən iri və xırda buynuzlu heyvanların baytar-sanitariya qaydalarına uyğun aparılmasına zəif nəzarət olunur, şəhərin ayrı-ayrı yerlərində, yol kənarlarında, ən çox rast gəldiyimiz Dağ Kəsəmən kəndi ərazisində heyvanların harada gəldi kəsildiyinin şahidi oluruq. Bu cür hallar rayon Baytarlıq idarəsinin rəhbərliyini ciddi düşündürməlidir.

Meşə Mühafizə və Bərpası Müəssisəsi tərəfindən 2017-ci ilin 6 ayı ərzində 15 ha sahədə badam, 7.5 ha ərik, 5.7 ha gilas, 2.8 ha sahədə gilanar, 4 ha sahədə gavalı cinsindən ibarət 35.0 ha sahədə meyvə bağı salınaraq ümumilikdə 16750 ədəd ting əkilmişdir. Meşələrin qorunması və mühafizəsi işi təşkil olunmasına baxmayaraq, Meşə Mühafizə və Bərpası Müəssisəsində və Qarayazı Dövlət Təbiət Qoruğunda ağacların qanunsuz kəsilməsinə az da olsa rast gəlmək olur. Bakı-Qazax avtomobil yolunun rayon ərazisindən keçən hissəsində ötən dövr ərzində 5 mindən artıq müxtəlif növ ağac tingləri əkilmişdir.

2017-ci ilin 6 ayı ərzində rayonda ictimai təşkilatlar, siyasi partiyalarla və kütləvi informasiya vasitələri ilə iş qanunauyğun tənzimlənmiş və dini tolerantlıq təmin olunmuşdur.

Azərbaycan Respublikasında təhsilə, ümumiyyətlə ölkənin gələcəyi olan gənc nəslin təlim-tərbiyəsi ilə bağlı bütün məsələlərə dövlət qayğısı günbəgün artır. Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllim əməyinin yüksək qiymətləndirilməsi təhsil işçilərindən daha məsuliyyətlə işləməyi, bu sahənin idarə olunması ilə bilavasitə məşğul olanlardan isə pedaqoji kollektivlərin fəaliyyətinə müntəzəm və səmərəli nəzarəti gücləndirməyi tələb edir.

Təhsilin infrastrukturunun daha da yaxşılaşdırılması istiqamətində ciddi işlər görülmüşdür. 2012-ci ildən bu günə qədər rayonda 8 yeni məktəb binası tikilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 21.10.2016-cı il tarixli Sərəncamına uyğun olaraq 1320 şagird yerlik Ağstafa şəhər 3 saylı tam orta məktəbin əsaslı təmiri işləri həyata keçirilir. Köhnəqışlaq kənd tam orta məktəbi üçün 108 yerlik yeni məktəb binasının və Kolayır kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəb binasının tikintisi işləri başa çatdırılmış və cari tədris ilində şagirdlərin istifadəsinə veriləcəkdir.

Müəllimlərin diaqnostik qiymətləndirilməsinin aparılması ilə əlaqədar maarifləndirici tədbirlər həyata keçirilmiş, rayon üzrə 1402 nəfər müəllimin diaqnostik qiymətləndirmədə iştirak etmək üçün sənədləri hazırlanmış və 1374 nəfəri imtahanda iştirak etmişdir. Rayon üzrə imtahanların mərkəzləşdirilmiş formada keçirilməsi üçün zəruri təşkilati tədbirlər həyata keçirilmiş və imtahanları keçirmək məqsədilə 2 mərkəz yaradılmışdır. 889 nəfər şagird ümumi orta təhsil, 701 şagird tam orta təhsil haqqında atestat almışdır. Onlardan 414 nəfəri ali və orta ixtisas təhsili müəssisələrinə sənəd vermişdir. Qeyd edim ki, bu il ilk dəfə təhsildə fərqlənən şagirdlərə fərqlənmə atestatı verilmiş və rayon üzrə 27 şagird fərqlənmə atestatına layiq görülmüşdür.

Əhalinin sağlamlığının qorunmasına dair dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi və movcud olan tibb məntəqələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə Ağstafa Rayon Mərkəzi Xəstəxanası tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. 2017-ci ilin 6 ayı ərzində 1726 nəfər ilkin xəstə dispanser qeydiyyatına götürülmüşdür. Hazırda 6386 nəfər dispanser qeydiyyatında saxlanılır. Rayon üzrə 121 nəfər şəkərli diabet, 18 vərəmli, 63 onkoloji, 9 xroniki böyrək çatışmamazlığı xəstələr həkimlər tərəfindən ilkin aşkar olunaraq qeydiyyata götürülmüş və mütəmadi olaraq pulsuz dərmanla təmin edilmişdir.

Ağstafa rayon GEM-də ötən 6 ay ərzində müayinə zamanı 21 vərəm, 777 yuxarı tənəffüs yollarının kəskin infeksiyası, 1 hepatit C qeydə alınmışdır. Qeyd olunmuş infeksion xəstələrin evlərində yekunlaşdırıcı dezinfeksiya işləri və ocaqlarda kantaktlar üzərində nəzarət aparılmışdır. Rayonda sanitar təmizliyə riayət olunması, küçə ticarətinin qarşısının alınması, infeksion xəstəliklərin yaranma mənbələrinin profilaktikası və istehlak vaxtı keçmiş ərzaq məhsullarının satışdan çıxarılması sahəsində ardıcıl tədbirlər həyata keçirilməlidir.

Ağstafa rayonunda mədəni-kütləvi tədbirlər keçirilir, əhalinin mədəni istirahətinin təşkili üçün müxtəlif şənliklər, konsert və digər əyləncəli proqramlar təşkil olunur.

Qeyd etmək lazımdır ki, rayonun mədəniyyət müəssisələrindəki mövcud olan dərnəklərin fəailiyyəti gücləndirilməlidir. Xalq bədii yaradıcılığının tətbiqi və təbliği, bədii özfəaliyyət dərnəklərinin inkişafı istiqamətində iş aparılmalıdır. Yeniyetmə və gənclərin klub və mədəniyyət evlərində fəaliyyət göstərən dərnəklərə cəlb olunması, istedadlı və yaradıcı gənclərin aşkar olunması, onların yaradıcılığının inkişaf etdirilməsi məqsədi ilə mövcud imkanlardan istifadə edilməlidir. Qeyd olunanları nəzərə alaraq bu kimi halların aradan qaldırılması üçün Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsi təxirəsalınmaz tədbirlər həyata keçirməli, kənd mədəniyyət müəssisələrinin işində dönüş yaratmalı, əhaliyə göstərilən mədəni xidmət işini günün tələbləri səviyyəsində qurmaq üçün mövcud imkanlardan istifadə etməli və əlavə tədbirlər görməlidir.

Ağstafa rayon Gənclər və İdman İdarəsi tərəfindən ötən dövrdə gənclər sahəsində 22, idman sahəsində 27 tədbir keçirilmişdir. Fərqlənən idmançılara Rayon Icra Hakimiyyətinin fəxri fərman və hədiyyələri verilmişdir. Yeniyetmə və gənclər arasında vətənpərvərlik tərbiyəsi işinin yüksəldilməsi, vətənə məhəbbət hissinin aşılanması məqsədilə tədbirlərin keçirilməsi işində Gənclər və İdman İdarəsi məsuliyyətini artırmalı və gənclər arasında mədəni kütləvi tədbirlərin keçirilməsi üçün əlavə tədbirlər görməlidir.

Ağstafa rayonunda abadlıq-quruculuq və təmir-tikinti sahəsində sürətli inkişaf təmin edilmişdir. Kənd və qəsəbələrdə əhali içməli su məqsədi ilə suvarma üçün qazılmış subartezian quyularından istifadə edir. Kür çayının solsahil 11 yaşayış məntəqəsində həyətlərdə qazılmış su quyularından istifadə olunur. Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Ağgöl, Qarayazı və Köçvəlili kəndlərinin içməli su təminatının yaxşılaşdırılması nəzərdə tutulmuş, ilkin olaraq mütəxəssislər tərəfindən əraziyə baxış keçirilmiş və layihələndirmə işlərinə başlanılmışdır.

Ağstafa şəhərinin abadlaşdırılması küçə və meydanların yenidən qurulması çoxmənzilli yaşayış bunalarının təmiri işləri ön plana şəkilmişdir. C.Cabbarlı, İ.Rəhimov və Qaçaq Kərəm adına küçələrdə abadlıq-yenidənqurma işləri davam etdirilir. Aşıq Ələsgər, Mehdi Mustafayev, H.Aslanov və Nizami küçələrində abadlıq işləri üçün hazırlıq işləri aparılır, zəbt olunmuş səkilər açılmış və ağaclar budanmışdır. Şəhərin Ş.Qurbanov 4 və 23 saylı, M.Allahverdiyev 16, 20, 22 saylı, R.Alıcanov 1 və 2 saylı, C.Cabbarlı küçəsində 17, 19 və 38 saylı, Heydər Əliyev prospekti 36 saylı yaşayış binalarının dam örtüyü dəyişdirilmiş, fasad hissəsi, pilləkən boşluqları və həyətlərində təmir bərpa işləri görülmüşdür.

Rayon mərkəzinin abadlaşdırılması ilə yanaşı rayonun qəsəbə və kəndlərində də abadlıq, tikinti-quruculuq işləri genişləndirilməlidir.

Əhalinin təbii qaz yanacağı ilə təmin edilməsində müəyyən işlər görülsə də problemlər də mövcuddur. Rayonun Muğanlı, Sadıqlı, Ağgöl və Böyük Kəsik yaşayış məntəqəlinin qazlaşdırılması işləri başa çatdırılsa da əhali təbii qaz yanacağı ilə təmin edilməmişdir. Ağstafa şəhəri də daxil olmaqla əhalinin gücü ilə qazlaşdırılmış yaşayış məntəqələrinin qaz şəbəkələrinin layihə əsasında yenidən qurulmasına və qazın bərabər təzyiqdə paylanılmasına ehtiyac vardır.

Əhalinin elektrik enerjisi ilə təminatında hesabat dövründə bir sıra işlər görülmüş, sıradan çıxmış 36 ədəd müxtəlif gücə malik transformatorlar bərpa edilmiş 10, 6 və 04 kv elektrik xətlərində cari təmir işləri aparılmış, çürük dayaqlar yenisi ilə əvəz edilmişdir. Son on ildə salınmış məhəllərin elektrik enerjisi ilə təminatı yarıtmazdır. Əhali standartlara uyğun olmayan kortəbii çəkilmiş elektrik xəttlərindən istifadə edir ki, bu da insan həyatı üçün ciddi təhlükə mənbəyidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrlə yanaşı, nəqliyyat-yol kompleksində, eləcə də yol təsərrüfatında sistemli və kompleks tədbirlər həyata keçirilir. Son illər Ağstafa rayonunda yol infarstrukturunun əsaslı, yenidən qurulması uğurla icra olunur. Hazırda əsaslı şəkildə yenidən qurulan Vurğun, Həsənsu, Qırılı, Eynallı və Köçəsgər kəndlərini Ağstafa şəhəri ilə əlaqələndirən uzunluğu 15,5 km olan Ağstafa - Köçəsgər avtomobil yolunda əsaslı yenidənqurma işləri davam etdirilir. Vurğun, Göycəli, Tatlı, Yaradullu və Köhnəqışlaq kəndlərini rayon mərkəzi ilə əlaqələndirən uzunluğu 24 km olan Vurğun-Köhnəqışlaq avtomobil yolunun yenidən qurulması işlərinə başlanılmışdır. 9,5 km uzunluğunda Köçvəlili-Qarayazı avtomobil yolunun əsaslı surətdə yenidənqurulması həyata keçirilir. Bu günlərdə 9.5 km uzunluğunda olan Ağstafa-Aşağı Kəsəmən-Zəlimxan-Poylu avtomobil yolunun tikintisinə başlanılmışdır.

Ağstafa rayonu ərazisində əhalinin rahat və təhlükəsiz gediş-gəlişini təmin etmək məqsədilə 4 körpünün tikintisi ilə bağlı görülən işlər yekunlaşmaq üzrədir.

Ağstafa 27 saylı Yol İstismar İdarəsi balansında olan yolların saxlanılması, istismarının normal təşkili, yol nişanlarının, siqnal direklərinin bərpası, təmizlənməsi sahəsində tədbirlər görməlidir.

2017-ci ilin ötən dövrü ərzində rabitə sisteminin yaxşılaşdırılması sahəsində bir sıra addımlar atılmış, internet istifadəçilərinin sayı artırılmışdır. Dağ Kəsəmən EATS-in montaj tutumu artıtrılmış və abonentlərin istifadəsinə verilmişdir. 125 abonentə internet verilmişdir. Təbii fəlakət törədə biləcək hadisələrin qarşısının alınması məqsədi ilə ilin əvvəlində sel sularının, uçqunların və qrunt sularının qarşısının alınması məqsədi ilə aidiyyəti qurumlar qarşısında məsələ qaldırılmışdır. Uzun illər sel sularından əziyyət çəkən Dağ Kəsəmən kəndində fərdi və ictimai tikililərə, fərdi təsərrüfatlara külli miqdarda ziyan dəymişdir. Təhlükənin qarşısının alınması məqsədi ilə ötən il mühafizə bəndlərinin tikintisinə başlanılmışdır. Həmin tikintinin başa çatdırılması üçün tədbirlər görülməlidir. Saloğlu, Köçəsgər kəndlərində uçqunların qarşısının alınması, Tatlı kəndində qurunt sularının aradan qaldırılması üçün yeraltı və yerüstü drenaj şəbəkələrinin tikintisinə nail olunmalı, rayon ərazisindən keçən Həsənsu, Ağstafaçay və Kür çaylarında sahilbərkitmə işləri davam etdirilməlidir. Qeyd olunan problemlərin həlli ilə bağlı tərəfimizdən Nazirlər Kabinetinə və Meliorasiya Su Təsərrüfatı ASC-nə müraciət edilmişdir.

2017-ci ilin yanvar-iyun ayları ərzində Ağstafa rayonu İcra hakimiyyəti başçısının aparatına vətəndaşların 384 müraciəti daxil olmuş, rayon İcra hakimiyyəti tərəfindən 3518 nəfər vətəndaş qəbul edilmiş, yerlərdə 24 səyyar qəbulları keçirilmiş, həmin görüşlərdə 2936 nəfər iştirak etmiş, 243 təklif irəli sürülmüşdür. Qaldırılan problem və təkliflərin 112-si həll olunmuş, 59-unun icrası davam etdirilir, 72 təklifin icrası növbəti aylarda nəzərdə tutulur.

***

Məruzə şura iclasında geniş müzakirə olundu, mövcud nöqsanlar təhlil edildi və həmin nöqsanların aradan qaldırılması üçün müvafiq idarə, müəssisə rəhbərlərinə göstərişlər verildi və geniş qərar qəbul olundu.

1.qxd 11.08.2017 14:11 Page 4

“AğstafaAqroservis” MMC-nin ikinci layihəsinin icrası sürətlə davam etdirilir

“AğstafaAqroservis” MMC-ninikincilayihəsiolanAğstafaTaxılvəUnMəmulatlarıİstehsalıKombinatınıntikintisisürətlədavametdirilir. İnşaatişlərinə 2015-ci ilinmartındabaşlanılıb. AzərbaycanRespublikasınınPrezidenticənab İlhamƏliyevinkeçən il Ağstafarayonunasəfəriçərçivəsində Ağstafa “Aqroservis” MMC-ninnəzdindəyaradılacaqtaxılvəunməmulatlarıistehsalıkombinatınıntaxılanbarınıntəməlqoymamərasimindəiştiraketmiş, ümumisahəsi 5048 kvadratmetrolanhazırməhsullaranbarınabaxmışdır. DövlətbaşçısıümumilikdəAğstafa “Aqroservis” MMC-ninlayihələriçərçivəsindəgörülənişləriyüksəkqiymətləndirmişdir.

Ağstafa Taxıl və Un Məmulatları İstehsalı Kombinatı 3 zavoddan ibarət olacaq. Bunlar “Toxumluq taxıl emalı”, “Taxıl emalı və un istehsalı” və “Çörək və yarımfabrikatlar istehsalı” zavodlarıdır.Layihə çərçivəsində saatda 1,0 ton istehsal gücü olan çörək və yarım fabrikatlar sexi, saatda 25,0 ton istehsal gücü olan toxum istehsalı zavodu 30,0 min tonluq taxıl, 2,0 min tonluq un rezervuarları, mədəniyyət mərkəzi, 300 yerlik konfrans zalı, hazır məhsul anbarı, ikimərtəbəli Fas-food iaşə obyekti, 140 yerlik yeraltı avtomobil dayanacağı, yem anbarı yaradılacaq. Ümumi sahəsi 2,0 min kvadratmetr olacaq Fas-food iaşə obyektində kompleksin istehsal etdiyi çörək, un və qənnadı məhsulları təqdim ediləcək. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində Almaniyanın qabaqcıl şirkətlərinin İxracat krediti Sığorta agentliyinin (Fuler Hermes), “Landesbank Baden-Wuerttemberg” dəstəyi ilə “Ağstafa Aqroservis”-in II mərhələsini təşkil edən Ağstafa taxıl və un məmulatları kombinatının tikintisinə 39,0 milyon avro vəsait ayrılıb. Bu layihəyə 6,0 min ha torpaq sahəsini əhatə edən taxılçılıq təsərrüfatı, 30,0 min ton saxlama gücü olan taxıl anbarı, ümumi sahəsi 4048 kv. metr olan toxum emalı müəssisəsi, istehsal gücü saatda 5,0 ton olan taxıl emalı və un zavodu, istehsal gücü saatda 5,0 ton olan çörək və çörək məmulatları zavodu, marketinq, satış və eyni zamanda 200 nəfərə xidmət edən “Fas-food” iaşə xidməti sistemi və özündə istehsal və emal sahələrini birləşdirən böyük aqro parkın təsis edilməsi ilə bölgədə ən böyük taxılçılıq təsərrüfatının yaradılması, kənd təsərrüfatı məhsullarının istehsalında və torpaqların istifadə edilməsində mühüm təşviq təsirinin olması daxildir. Layihə vətandaşlara regiona uyğunlaşdırılmış taxıl toxumunun emalı, yerli taxıl sortlarından alınan un istehsalının tənzimlənməsi, əhalinin un, çörək və şörək məmulatları ilə təchiz edilməsi, regionda qaba yem istehsalı probleminin həll olunmasına köməklik edəcək.

İstehsal və emal olunan məhsullar həm yerli bazarın tələbatının ödənilməsinə, eləcə də ixrac üçün nəzərdə tutulur. Layihə hazır olduqda 240 nəfər işlə təmin ediləcəkdir. Ağstafa taxıl və un məmulatları kombinatı layihəsinə daxil olan toxum emalı müəssisəsinin tikinti işləri başa çatmaq üzrədir. Layihəyə daxil olan digər istehsal və emal müəssisələrinin tikinti işləri xeyli sürətləndirilmişdir. Tikintiişlərininmərhələlərlə yaxınaylardayekunlaşmasınəzərdətutulur.

Heydər Əliyev Mərkəzində “İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri” mövzusunda tədbir keçirildi

Tədbiri giriş sözü ilə Rayon İcra hakimiyyəti başçısının birinci müavini Ramiz Tatarov açaraq bildirdi ki, Ağstafa rayonunda dövlət-din münasibətlərinin tənzimlənməsi, rayonda fəaliyyət göstərən dini icmalarla işin qanunauyğun təşkili, dini ibadət və mərasimlərin keçirilməsi sahəsində müəyyən təcrübə əldə edilmişdir.

Ağstafa rayonunda dini qurumlarla münasibətlər Azərbaycan Respublikası Konstitusiyası və “Dini etiqat azadlığı haqqında” Azərbaycan Respublikası qanunlarına əsasən qurulur. Qeyri ənənəvi dini təriqətlərin zərərli təbliğatının qarşısının alınması məqsədilə mütamadi olaraq tədbirlər həyata keçirilir.

Tədbirdə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı geniş məruzə edərək bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci ilin Azərbaycan Respublikasında “Islam Həmrəyliyi ili” elan edilməsi ilə əlaqədar Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə və eyni zamanda məzhəblər arasında dini tolerantlığın qorunması, həmrəyliyin təmin edilməsi və dini radikalizmə qarşı mübarizə güçləndirilməsi sahəsində Komitə tərəfindən silsilə tədbirlər həyata keçirilir. Keçirilmiş tədbirlərdə əsas məqsəd yeniyetmə və gənlər arasında dini maarifləndirmə işlərinin aparılmasıdır.

Daha sonra Rayon Ağsaqqallar Şurasının sədri Ağstafa cümə məscidinin dini icmanın üzvü Firdovsi Heydərli və Qazi İlham Süleymanov çıxış edərək bildirdilər ki, Azərbaycanda din dövlətdən ayrı olsa da, ölkə rəhbərliyi səviyyəsində islama, onun ayrı-ayrı mübarək bayramlarına yüksək hörmət, ehtiram, etiqad mövcuddur.

1.qxd 11.08.2017 14:11 Page 5

Vacib söhbət

Aqillər bu fikri həmişə həyatı misal kimi yeri gələndə işlədiblər. Deyiblər ki, "hər bir ailə bir kiçik dövlətdir". Deməli ailəni də dövlət kimi, vətən kimi qorumaq, qayğısına qalmaq gərəkdir. Ona görə də müstəqil dövlətimiz, onun başında duran möhtərəm prezidentimiz hər bir ailəyə daim diqqət və qayğı göstərir, xüsusilə gənc ailələrin sosial müdafiəsinin gücləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirir. Respublika prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan ailəsinə göstərilən qayğı son illər daha da artırılmışdır.

Ailə də bir dövlətdir

Buna baxmayaraq son vaxtlar ölkədə boşanma hallarının artması ciddi narahatlıq doğurur. Əlbəttə, bu sahədə vəziyyət bizim rayonda da ürəkaçan deyildir. 2016-cı ildə rayonun şəhər və kəndlərində 63 boşanma qeydə alındığı halda, cari ilin ötən müddətində bu rəqəm 50 olmuşdur. Hələ icrası başa çatdırılmamış bir neçə məhkəmə qərarı da qovluqda yatır.

İldən-ilə boşanma hallarının artmasının əsas səbəblərini öyrənmək üçün rayon qeydiyyat şöbəsində olduq. Şöbənin rəisi Arifə Qasımova bildirdi ki, boşanma hallarının artmasının bir neçə mühüm amilləri vardır. Bunlardan biri əlbəttə ki, ailənin maddi durumudur. Hər bir ailədə normal yaşamaq üçün ehtiyaclar ödənmədikdə, şübhəsiz ki, narazılıqlar da artır. Bir-birini başa düşən ailələrdə bu narazılıqlar elə ailə daxilində həll olunur, başqalarında isə daha da şişirdilib problemə çevrilir. İkinci əsas səbəb sərxoşluğun və narkomaniyanın artmasıdır. Bu zərərli adətlərə meyil salan kişilərin əksəriyyəti ailənin qayğısına qala bilmir, uşaqlarına mehribanlıq və qayğı göstərmir, bu da ailədə ciddi narazılığa səbəb olur. Əlbəttə, qarşılıqlı hörmət, bir-birini anlamaq hissi olmayan yerdə ailə münaqişələrinin sonu boşanma ilə bitir.

Bir məsələni də qeyd edim ki, son vaxtlar bir dəb də yaranıb. Bir-birindən boşanmaq istəyən tərəflər istintaq və məhkəmə prosesində özlərinin etibarlı nümayəndələrini göndərirlər. Düzdür buna qanun yol verir. Ancaq məsələyə dəqiqliklə yanaşanda görürük ki, belə vətəndaşlar ailənin dağılmasına laqeyd münasibət bəsləyirlər. Belə məsul bir məsələni başqalarının ağlı ilə həll etmək istəyən doğma ata və ana uşaqlarının gələcək həyatını düşünmürlər. Atasız və ya anasız böyüyən uşağın gələcək taleyini bu cür həll etmək olmaz. Eynilə başqa bir hal. Boşanma üçün təyin olunan alimentin məbləği 95-105 manat həcmində yüksəlmişdir. Dayaz düşünən qadınlar buna ümid olub belə fikirləşirlər ki, iki və ya üç uşağa filan qədər aliment alacağam, neynirəm daha belə əri? Daha fikirləşmirlər ki, məsələ təkcə dolanma ilə bitmir, bəs uşaq ata deyib boynunu buranda neyləyəcəksən?

Mən bu sahədə təcrübəmdən yəqin etmişəm ki, biz nə qədər izahat və təbliğat işlərinin səviyyəsini artırsaq, ailələrdə hərtərəfli söhbətlər aparsaq, boşanma hallarının sayı azalar. Dəfələrlə belə hala rast gəlmişik. Yaşları 60-ı ötmüş ər-arvad nəyin üstündəsə mübahisə ediblər. Bizim şöbəyə ərizə verəndən sonra onların evinə getmişik, bir neçə uşaq sahibi olan ailənin kişisi ilə və qadınla ayrı-ayrılıqda söhbət etmişik, onların orta yaşlı oğul-qızları da bu söhbətə qatılıblar. Məlum olub ki, hər iki tərəf boş bir işdən ötrü öz inadlarını yeritmək istəyir. Xeyli məsləhətdən, tövsiyədən sonra ata da, ana da inadlarından əl çəkdilər və ailə pozulmadı.

Köçəsgər kəndindən cavan bir ailə şöbəmizə gəlib boşanmaq istədiklərini bildirdilər. Yenicə də bir uşaqları dünyaya gəlmişdi. Məhkəmə də onların ərizəsinə baxıb ayrılmalarına qərar vermişdi. Əslində biz də məhkəmənin qərarını icra etməliydik. Biz gənc anaya xeyli məsləhət verdik, izahat apardıq. Nəhayət başa saldıq ki, qucağındakı körpə özünü başa düşəndə ata axtaracaq. O, evə qayıdandan sonra xeyli fikirləşib qərarını dəyişmişdi. Bir neçə gündən sonra utana-utana gəldi ki, mən peşman olmuşam, bizim nikahımızı geri oxumaq olarmı? Əlbəttə, biz onu ikinci dəfə qeydə aldıq və başa saldıq ki, ailəsi, uşağı olan analar xoşbəxtdir.

Məlumdur ki, boşanma ərizəsinə baxandan sonra məhkəmə iddaçılara üç ay vaxt verir. Az müddət deyil, bu üç ayda valideynlər, ağsaqqallar, ziyalılar, hətta yaxın qohum-qonşu işə qarışıb hər iki tərəfə öyüd-nəsihət versələr, onları tənbeh edib başa salsalar nəticəsiz qalmaz. Avropa ölkələrində belə bir təcrübə varonların məhkəmə orqanlarında ixtisaslı psixoloqlar çalışırlar. Həmin üç ay ərzində bu psixoloqlar boşanmaq istəyənlərin evlərinə gedir, ayrılıqda söhbətlər aparır, ailə vəziyyətlərini və dolanmalarını yoxlayırlar. Bu təcrübə bizim məhkəmə sistemində də tətbiq olunsa çox yaxşı nəticə verər.

Boşanmalarda erkən nikahın da təsirini unutmaq olmaz. Həddibuluğa çatmamış qızların ailə qurması üçün heç cür məqbul sayıla bilməz. Çünki onların şüuru hələ tam formalaşmır və onlar ailənin mahiyyətini düzgün qiymətləndirə bilməzlər. Bu səbəbdən bütün təhsil ocaqları, icra nümayəndələri və yerli bələdiyyələr, ictimaiyyət nümayəndələri bu hala qarşı mübarizə aparmalıdırlar. Belə halların hüquq-mühafizə orqanlarından gizlədilməsi gələcəkdə ailə dağılmasına şərait yaradır.

Bəli, hər ailə kiçik bir dövlətdir. Biz dövlətimizə nə qədər sadiqiysə, ona nə qədər güvəniriksə, ailəmizə də eləcə sadiq olmalı, birbirimizə güvənməliyik. Hər ailədə vətənimizə, dövlətimizə layiq vətəndaşlar yetişdirməliyik.

Söhbəti yazdı:
F.Heydərli

Sosial hüquqların müdafiəsi

Artıq bir neçə ildir respublikamızda "Sosial hüquqların araşdırılması" ictimai birliyi fəaliyyət göstərir. Bu birlik əhalinin həssas təbəqələrinin sosial hüquqlarının müdafiəsi sahəsində maarifləndirmə və hüquqi yardım xidmətləri göstərilməsi ilə məşğuldur. Bu ilin əvvəlində yeni layihələr həyata keçirməyə başlayan birlik bu günlərdə rayonumuzda da belə bir tədbir keçirmişdir.

Layihənin əsas məqsədi əhalinin həssas təbəqələrini, çətin həyat şəraitində yaşayan şəxslərin və ailələrin, eləcə də işsiz gənclərin, aztəminatlı ailələrin, təhsildən kənarda qalmış insanların, iş tapmaqda çətinlik çəkən və sosial müdafiəyə ehtiyacı olan ahılların sosial hüquqlarla bağlı məlumatlandırılması, bu sahədə hüquqi biliklərin artırılması və onlara pulsuz hüquqi yardım xidmətlərinin göstərilməsi, pozulmuş hüquqlarının inzibati və məhkəmə qaydasında müdafiəsindən ibarətdir. Layihə çərçivəsində əhalinin həssas təbəqəsinə fərdi qaydada hüquqi məsləhət xidmətinin göstərilməsi məqsədilə sosial məsələlər üzrə hüquq klinikası təşkil edilmiş və müntəzəm fəaliyyətə başlamışdır.

Bu günlərdə layihənin icra planına uyğun olaraq Ağstafa şəhərində "Əhalinin həssas təbəqələrinin sosial hüquqlarının müdafiəsi" movzusunda ictimai müzakirə keçirilmişdir. Tədbiri giriş sözü ilə "Sosial hüquqların araşdırılması " ictimai birliyinin sədri, Bakı Dövlət Universitetinin professoru Mayis Əliyev açmışdır. Mayis Əliyev layihənin mahiyyəti haqqında, layihə şərçivəsində yaradılmış sosial məsələlər üzrə hüquq klinikasında əhalinin həssas təbəqələrinə göstərilmiş hüquqi xidmətlər barədə geniş məlumat vermişdir.

Tədbir iştirakçıları əmək, tibbi xidmət, sosial təminat, ailə və təhsil problemləri ilə bağlı onları narahat edən məsələlərdən bəhs etmişlər. Onların sualları hüquqi qaydalar əsasında ətraflı cavablar verilmiş, bir sıra məsələlər yerindəcə izah olunmuşdur. Lazım gəldikdə hər bir şəxsə pulsuz hüquqi məsləhət xidmətləri göstərilmişdir. Xəstə və əlil uşaqların sosial adaptasiyası məsələlərindən də geniş danışılmışdır.

Axırda professor Mayis Əliyev tədbir iştirakçılarının suallarına cavab vermişdir.

Taxıl biçini başa çatdı

Ölkə rəhbəri möhtərəm prezidentimiz cənab İlham Əliyevin respublikamızda kənd təsərrüfatının inkişaf etdirilməsinə göstərdiyi diqqət və qayğı öz müsbət nəticəsini göstərməkdədir. Bu qayğıdan ruhlanan rayonumuzun taxılçıları hələ yaz aylarında əkin-səpin işlərini uğurla başa vurmuş, sahələrdə bol məhsul yetişdirmək üçün bütün imkanlardan istifadə etmişlər.

Cari ildə rayonun kəndlərində 8735 hektar sahədə buğda, 187 hektar sahədə arpa əkilmişdir ki, bu da keçən ildən 3 hektar çoxdur. Sahələrdə becərmə işlərini yüksək səviyyədə aparan taxılçılar tarlalarda bol məhsul yetişdirmişlər. Rayon kənd təsərrüfatı idarəsindən əməkdaşımıza bildirdilər ki, artıq rayonun bütün kəndlərində arpa və buğda biçini tam başa çatdırılmış, hər hektardan 30,5 sentner buğda, 25,5 sentner arpa tədarük olunub anbarlara təhvil verilmişdir.

Seminar müşavirə

Ağstafa şəhər "Yazıçılar Evi"ndə "İslam Həmrəyliyinin Azərbaycan nümunəsi" mövzusunda seminar-müşavirə keçirilmişdir. Tədbirdə yerli dini icmanın üzvləri, hüquq mühafizə orqanlarının əməkdaşları və rayon gənclər iştirak edirdilər. Tədbiri giriş sözü ilə Ağstafa rayon İcra hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Əziz Məsmalıyev açaraq bildirdi ki, ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan xalqının zəngin tolerantlıq və multikulturalizm ənənələrinin qorunmasına xüsusi diqqət yetirilmiş, ölkəmizdə dini dözümlülüyün möhkəmləndirilməsi hökumətin din siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Hazırda bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab prezident dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsinə, tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə, dini abidələrin bərpasına xüsusi önəm verir.

Daha sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Tovuz bölgəsi üzrə nümayəndəsi Rasim Tağıyev, Ağstafa rayon Prokurorunun köməkçisi Rəhim Hüseyinli, Ağstafa qəzetinin redaktoru İbrahim Əliyev və İmam Əli adına Ağstafa cümə məscidi dini icmasının sədri Şahin İsmayılzadə çıxış edərək bildirdilər ki, Azərbaycan Respublikasının Prezidenti, ulu öndərin layiqli davamçısı və siyasi varisi cənab İlham Əliyev bu siyasəti uğurla davam etdirərək, dövlət-din münasibətlərinin beynəlxalq hüquq normalarına uyğun tənzimlənməsi, ölkədəki tolerantlıq mühitinin qorunub saxlanması və böyük tarixə malik dini məbədlərimizin bərpası istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Seminar-müşavirə işgüzar şəraitdə keçdi.

1.qxd 11.08.2017 14:12 Page 6

Hekayə Türkiyə mətbuatında dərc olundu

Bu yaxınlarda rayonda yaşayıb-yaradan yazıçı, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Prezident təqaüdçüsü, Ağstafa Rayon Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Əli Cəfəroğlunun "Beş kuruş" ("Beş qəpik") adlı hekayəsi qardaş Türkiyə Respublikasında "Adana haber postası" adlı qəzetdə dərc edilmişdir. Qeyd edək ki, Halisə Tekbaşın baş redaktor olduğu bu qəzet Türkiyənin Adana şəhərində nəşr olunur və bu hekayə müəllifin xarici ölkədə işıq üzü görmüş ilk əsəridir.

Hekayədə axşam saatlarında şəhərin mərkəzində yerləşən kinoteatrdan çıxan tələbəyə başqa bir şəxsin soyğunçuluq məqsədilə hücum etməsi və onun arxasınca qaçması hadisəsi təsvir olunur. Bir müddət qaçdıqdan sonra həmin şəxs tələbəyə yetişir və cibindən pulunu çıxarmasını tələb edir. Bu zaman tələbə cibindən beş qəpik çıxararaq ona verir və başqa pulunun olmadığını bildirir. Soyğunçu sarı metal sikkəyə küçə fonarının zəif işığında bir xeyli baxır, bu qədər qaçmasına təəssüf edir. Tələbə isə həmin vaxt küçəni keçərək yaşadığı evə tərəf getməyə başlayır. Sadə və oxunaqlı dildə yazılmış, dramatik və gərgin süjet xəttinə malik bu hekayə soyğunçuluğun peşmançılıq gətirdiyini və sonunun olmadığını açıb göstərir.

Əli Cəfəroğlu (Əliyev) 4 iyul 1968-ci ildə Ağstafa şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1985-1992-ci illərdə Bakı Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. 1992-1993-cü illərdə Ağstafa rayonunun Həsənsu kənd orta məktəbində müəllim, 1993-cü ildə Ağstafa Rayon İcra Hakimiyyəti başçısının köməkçisi, 1993-1995-ci illərdə Gəncə Dövlət Pedaqoji İnstitutunun Qazax filialında müəllim, 1995-1999-cu illərdə Rayon Gənclər və İdman İdarəsində baş inspektor, 1999-2011-ci illərdə Ağstafa Rayon İcra Hakimiyyətinin təhsil, səhiyyə və mədəniyyət şöbəsində baş məsləhətçi vəzifələrində işləmişdir. 2011-ci ildən Ağstafa rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifəsindəçalışır və 2-ci dərəcəli dövlət qulluqçusudur.

2002-ci ildə Əli Cəfəroğlunun "Atam mənim xoşbəxtliyim", 2003-cü ildə "Zirvəyə doğru", 2006-cı ildə "Həkimin arzuları", 2008-ci ildə "Səksən beş ilin baharı", 2013-cü ildə "Dənizçinin səyahəti" və 2014-cü ildə "Aforizm çələngi" adlı bədii kitabları nəşr olunmuşdur.

Altı kitab müəllifi olan Əli Cəfəroğlu 2006-cı ildən Azərbaycan Yazıçılar Birliyinin, 2014-cü ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncamla Əli Cəfəroğlu 01.05.2014-cü il tarixdən prezident təqaüdçüsü adına layiq görülmüşdür.

Yazıçı Əli Cəfəroğlunu bu münasibətlə təbrik edir və ona yeni-yeni uğurlar arzulayırıq.

İ. Əliyev.

Ay şair

Sevimli xalq şairimiz
Nəriman Həsənzadəyə

Səksən altı azdı,hələ nə yaşdı,
Bu nə intizardı, bu nə tələşdi,
Həyat mübarizə, ömür savaşdı,
Bunu az görmədin özün, ay şair.

Poylu beşiyimdi-dedin, bu haqdı,
Ömür yollarında yanan çıraqdı,
Hər şeyin meyarı zamandı, vaxtdı,
Arxada qalmasın gözün, ay şair.

Sevinsin bu torpaq, bir də ki, göylər,
Şeirsiz, sənətsiz bu ellər neylər,
Əsrlər keçsə də, inan, bəs eylər
Atəşin, ay şair, közün, ay şair.

Həmidoğlu deyər-safdı niyyətin,
Eldən güc alıbdır el məhəbbətin,
Hikmət dünyasıdır şeirin, sənətin,
Yaddaşa bəzəkdi sözün, ay şair.

Qurban Həmidoğlu,
Ağstafa, 17 iyun2017.

Şəhər 3 saylı tam orta məktəbində əsaslı təmir işləri davam edir

Ağstafa şəhər 3 saylı tam orta məktəb əsaslı şəkildə təmir edilir. Məktəb 32 sinif otağı, 2 labaratoriya, kitabxana, idman zalı, yeməkxana, informatika kabineti, hərbi hazırlıq kabineti və akt zalından ibarət olmaqla 1320 yerlikdir.

Məktəbin hər iki korpusunun köhnə dam örtüyü sökülərək yenisi ilə əvəz olunub. Layihəyə uyğun elektrik sistemi tamamilə yenilənib. Sinif otaqlarında işlər tamamlanmaq üzrədir. Məktəb binasını əhatə edən hasarlar, idman meydançası yenidən qurulub, ətrafında son tamamlama işləri görülür.

Şəhər 3 saylı tam orta məktəb binasının yeni dərs ilində istifadəyə verilməsi nəzərdə tutulub.

Sizi çox istəyir...

Xalq şairi Nəriman Həsənzadənin "Heydər Əliyev Mükafatı" alması münasibətilə

Yuxusuz gecələr şahiddi özü,
Qəlblərə məlhəmdi onun hər sözü,
Çünki yaşadacaq qoyduğu izi,
Sənət aləmində parlayan insan,
Sizi çox istəyir bu dövrü-zaman.

Sadə təvazökar, mehriban şair,
Bizlərə zəhmətin gör nələr deyir,
Gözümüzdə bir cəfakeş böyüyür.
Sənət aləmində parlayan insan,
Sizi çox istəyir bu dövrü-zaman.

Yaşadın, yaratdın, heç sarsılmadın,
Hicranı yandırdın, özün yanmadın,
Daim xalqım dedin, aralanmadın,
Sənət aləmində parlayan insan,
Sizi çox istəyir bu dövrü-zaman.

Yaman sevindirdin qohumu, yadı,
Zəhmətlə qazandın son mükafatı,
Dövlət təqdim etdi bu yüksək adı,
Sənət aləmində parlayan insan,
Sizi çox istəyir bu dövrü-zaman.

Vaqif də sevinir belə uğura,
Talehin verdiyi sevgi-qürura,
Yüzündə də alqış deyək məğrura,
Sənət aləmində parlayan insan,
Sizi çox istəyir bu dövrü-zaman.

Vaqif Əli,
Tatlı, 09.06.2017.

Kürün yeni körpüsü



2017-ci ildə rayonda aparılan ən nəhəng işlərdən biri də rayonun ərazisində dörd yeni körpünün inşa olunmasıdır. Ötən müddətdə həmin körpülərdən üçünün-Acı dərədə, Pirli kəndinə gedən yolda və Ağstafa şəhərindən Poylu kəndinə gedən yolun üzərində inşa olunan körpülərin tikintisi tam başa çatdırılmış və istifadəyə verilmişdir.

Dördüncü ən böyük körpü Kür çayının üzərində inşa olunan körpüdür. Diqqəti cəlb edən bu körpüdə artıq xeyli vaxtdır ki, işlər sürətlə davam etdirilir. Bu günlər burada işlərin gedişi ilə yaxından tanış olmaq üçün inşaatçılarla görşüb söhbət etdik. İlk görüşdən diqqəti cəlb edən bu nəhəng tikintidə demək olar ki, əsas işlər yekunlaşdırılmışdır. Körpünün avtomobillərin hərəkət hissəsinə asfalt örtük salınmış, piyada yolunda isə nəzərdə tutulan bütün işlər demək olar ki, tam başa çatdırılmışdır.

Körpünün üzərinin işıqlandırılması üçünelektrik dayaqları qoyulmuş, işıq lampaları quraşdırılmışdır. Hazırda körpüyə gedən yolun kənarında abadlıq işləri aparılır. İnşaatçılar bildirdilər ki, yaxın günlərdə bu işlər də tam başa çatdırılacaqdır.

1.qxd 11.08.2017 14:12 Page 7

Çal aşıq, çal...

Elimiz, obamız məşhur qələm sahibləri, şairlər diyarı kimi və həm də aşıq sənətini sevən saz-söz ustadları yetişdirən bir mahal kimi tanınır. Bacarıqları, qabiliyyətləri ilə özləri üçün ictimaiyyət arasında böyük hörmət, nüfuz, məhəbbət qazanan, unudulmayan şəxsiyyətlər rayonumuzda saysız-hesabsızdır. Onlardan biri də aşıq Hüseyn Əzizoğludur.

Aşıq Hüseyn telli sazını sinəsinə basıb səhnəyə çıxanda, el havalarını böyük məharətlə ifa edəndə, incə barmaqları ilə sazı danışdıranda, uca səslə el havalarını oxuyanda hamını valeh edir.

Bəlkə də rayonumuzda çoxlarının aşıq Hüseyn Hüseynovun keçdiyi həyat yolu barədə ətraflı məlumatı yoxdur. Odur ki, mən bu el sənətkarının həyat və yaradıcılığı barədə oxucularımıza ətraflı məlumat verməyi özümə borc bilib dəyirmi masa arxasında əyləşib onunla bir qədər söhbət etdim. Aşıq Hüseyn səhnədə çıxış edərkən onu dinləmək mənim üçün nə qədər xoş idisə, onun öz yaradıcılığı, keçdiyi həyat yolu barədə söhbətinə qulaq asmaq ondan da maraqlı idi.

El arasında aşıq Hüseyn Hüseynovu Hüseyn Əzizoğlu kimi tanıyırlar. O, 1947-ci ildə rayonumuzun Yuxarı Göycəli kəndində doğulub boya-başa çatmış, öz kəndlərində və Gəncə şəhərində orta təhsilini başa vurmuşdur. Hələ uşaqlıq illərindən Hüseyn Əzizoğlunda aşıq sənətinə, saz çalmağa, oxumağa böyük həvəs olmuşdur. Atası Əziz kişi aşıq olmasa da evlərində saz saxlamış, arabir çalıb-oxumuş,qonşuların könüllərini oxşamışdır.

Günlərin birində Əziz kişi öz həyətlərində balaca bir yığıncaq təşkil etmiş və bu yığıncağa qohumlarını , yaxın qonşularını dəvət etmişdir. Həmin vaxt Hüseynin vur-tut 6 yaşı var idi. Atasının iməclik adlandırdığı bu tədbirdə oğlu Hüseyndən bir xahişi olmuş, ona sazda çalmağı və oxumağı təklif etmişdir. Hüseyn atasının sözünü yerə salmamış və həmin tədbirdə baş dübeyti havasını elə ifa etmişdir ki, hamı ona valeh olmuş və gələcəkdə balaca Hüseynin gözəl bir aşıq olacağını söyləmişlər.

Hüseyn Əzizoğlu həmin gündən sonra saza elə bağlanmışdır ki, onu bu sənətdən heç kim ayıra bilməzdi. Kənddə, rayonda keçirilən tədirlərə gənc aşıq həmişə dəvət olunmuş və o, böyük həvəslə çalıb oxumuşdur.

1964-cü ildə Bakı şəhərində gənc aşıqların festivalı keçirilərkən Hüseyn də ora dəvət olunmuş və bu festivalda o, ən yaxşı saz çalan və oxuyanların siyahısına daxil edilmişdi. Tədbirdən sonra aşıq Hüseynin bu bacarığı nəzərə alınmış, ona festivalın əlaçısı diplomu verilmişdir.

Hüseyn Əzizoğlu sonralar hərbi xidmətə çağırılmış və o, hərbçilər qarşısında da öz gücünü nümayiş etdirmiş, çalmış-oxumuş, hərbi xidmətdə olanların hamısının diqqətini özünə cəlb etmişdir.

Hüseyn Hüseynov hərbi xidməti borcunu uğurla başa vurduqdan sonra doğma kəndlərinə qayıtmış, atasının təklifi ilə bu sənətin sirlərini daha dərindən öyrənmək üçün aşıq Aslan Aslanovun yanına getmişdi. Aşıq Aslan Aslanovdan aşıq sənətinin sirlərini öyrənmiş və 6 aydan çox onun tələbəsi olmuşdur.

El aşığı kimi tanınan Hüseyn Əzizoğlunun həyatında 1981-ci ildə yeni səhifə açılmışdı. O, aşıq Alının 180 illiyi münasibətilə keçirilən tədbirdə aşıq Alı rolunu oynamış və sonralar Qazax şəhərində folklor bayramında dədə Qorqud kimi çıxış etmiş və elə bununla da o, əsl el aşığı, söz ustası kimi tanınmışdır.

1981-ci ildə Azərbaycan ədəbiyyatının klassik yaradıcılarından biri olan sevimli şairimiz Hüseyn Arifin təşəbbüsü ilə Aşıq Hüseyn Ağstafada aşıq Alının adını daşıyan Musiqi məktəbində saz dərnəyinin rəhbəri kimi fəaliyyətini davam etdirmişdir. Hüseyn Əzizoğlu bu xeyirxah işi bu gün də davam etdirir və Ağstafadakı "Yazıçılar evi"ndə gənclərə aşıq sənətinin sirlərini öyrədir. Bu gün Ağstafada aşıq Hüseyn Əzizoğlundan saz çalmağı, oxumağı öyrənənlərin sayı 500-dən çoxdur. Söhbət zamanı aşıq Hüseyn İradə Salıahovanın, İlqar Qələmçəlinin, Əfsanə Kərimlinin, Fidan Qurbanovanın adlarını iftixarla çəkdi və dedi ki, onlar səhnəyə çıxıb saz çalanda onun ürəyi dağa dönür.

Hüseyn Əzizoğlu həm də yaxşı saz ustası və saz zərgəridir. Bir çox aşıqların çaldıqları sazlar onun əməyinin bəhrəsidir. 2014-cü ildə rayonumuzda məhsul bayramı keçirilərkən bu tədbirə dəvət olunan xarici qonaqlaın rəhbərinə aşıq Hüseynin hazırladığı sazın hədiyyə olunması təkcə ağstafalıları deyil, həm də xarici qonaqları ürəkdən sevindirmişdir.

Hüseyn Əzizoğlu yaxşı aşıq, saz ustası olmaqla yanaşı, həm də gözəl ailə başçısıdır. Onun böyütdüyü övladların hamısında elimizə, obamıza böyük hörmət və məhəbbət vardır. Vətəni yağı düşməndən qorumaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün son damla qanlarınadək vuruşmaq Hüseynin oğullarının ən böyük arzularından biridir.

1994-cü ildə Tərtər-Ağdərə döyüşlərində onun oğlu Şahlar Hüseynovun qəhrəmancasına döyüşməsini, vətən yolunda şəhid olmasını ağstafalılar heç vaxt unutmurlar. Vətənin belə qəhrəman oğulları əbədi yaşayırlar. Onlarla təkcə valideynləri yox, bütün Azərbaycan xalqı fəxr edir.

Hüseyn Əzizoğlu ömrünün ən əlamətdar illərindən birini yaşayır. Bir neçə gün bundan əvvəl el sənətkarının 70 yaşı tamam oldu. Bu ərəfədə Hüseyn Əzizoğlunun əməyi dövlət tərəfindən yüksək qiymətləndirildi və ona "Fəxri mədəniyyət işçisi" adı verildi.

Əziz və hörmətli saz ustamız Hüseyn Əzizoğlu. Sizi 70 yaşınızın tamam olması və vətənin yüksək mükafatına layiq görülməyiniz münasibətilə qəzetimizin bütün oxucuları adından təbrik edir və sizə daha böyük uğurlar arzulayırıq.

İbrahim Əliyev

Çuğundur əkilmiş sahələrə yüksək səviyyədə qulluq göstərilir

Bu il rayonun ərazisində ilk dəfə olaraq 501 hektar sahədə çuğundur əkilmiş və ötən dövrdə həmin sahələrin becərilməsinə xüsusi diqqət yetirilmişdir. Havaların quraq keçməsinə baxmayaraq çuğundur əkilmiş sahələrin suvarılması və yüksək səviyyədə becərilməsi üçün bütün imkanlardan istifadə edilmişdir. Məhz bütün bunların nəticəsidir ki, çuğundur əkilmiş sahələrindən bol məhsulun tədarük edilməsi gözlənilir.

Rayon kənd təsərrəfütaı idarəsindən əməkdaşımıza bildirdilər ki, bu il rayonda çuğundur əkilmiş sahələrin hər hektarından 40-70 ton məhsul tədarük olunması planlaşdırılmışdır. Bu isə rayon üzrə ümumən 15-20 min ton məhsul deməkdir. Bir aydan sonra rayonunbütün kəndlərində məhsul yığımına başlanılacaqdır. Hazırkı vəziyyət onu deməyə əsas verir ki, çuğundur becərən kənd əməkçiləri qarşıya qoyduqları məqsədə nail olacaq, yetişdirdikləri bol məhsulu itkisiz tədarük edəcəklər.

Son tamamlama işləri görülür

Ağstafada inşa edilən ən iri sənaye müəssisələrindən biri də el şairi Hüseyn Arifin adını daşıyan küçədə ucaldılan və son tamamlama işləri görülən toxuculuq fabrikidir. Bu fabrikdə tikinti işlərinin gedişi barədə qəzetimizin əvvəlki saylarında oxucularımıza ətraflı məlumat vermiş və qeyd etmişdik ki, sənaye müəssisəsi işə düşəndən sonra 180 nəfərə yaxın qadın burada çalışacaqdır. Bu günlər fabrikdə işlərin gedişi ilə yaxından tanış olmaq üçün tikinti meydançasında olduq və burada işlərin gedişinə rəhbərlik edən inşaat mühəndisi Abış Əsgərovla görüşüb söhbət etdik. A. Əsgərov öz işləri barədə qəzetimizə müsahibə verərək bildirdi:

-Mən bilirəm ki, ağstafalılar bu toxuculuq fabrikində tikinti işlərinin başa çatmasını və fabrikin istifadəyə verilməsini səbirsizliklə gözləyirlər. Məhz elə buna görə də biz işimizə daha məsuliyyətlə yanaşır, vaxt itkisinə yol vermədən tikinti işlərini sürətlə davam etdiririk.

İftixarla deyə bilərəm ki, tikintidə ən ağır işləri artıq yekinlaşdırmışıq. İnşaatçılarımız hazırda binanın daxilində nəzərdə tutulan işləri başa çatdırmaq üzrədirlər. Bir neçə gündür ki, sanitar qovşaqlarda kafel ve metlaxların düzülməsi işi ilə məşğuluq. Demək olar ki, yaxın günlərdə bu işi tam başa çatdıracaq, binanın divar və tavan hissəsinin rənglənməsi işinə başlayacağıq. Bütün bunlardan əlavə eyni vaxtda fabrikin istehsal sexlərində taxta döşəmələrin vurulması işini də görürük. Fabrikin daxilindəki digər otaqlara kermaqrintlərin vurulması işini də qurtarmaq üzrəyik.

Hüseyn Arif küçəsindən keçən bütün ağstafalıların diqqətini cəlb edən işlərdən biri də binanın fasad hissəsində və ətrafında görülən işlərdir. Demək olar ki, bu işlər də yekunlaşmaq üzrədir. Yaxın günlərdə binanın rənglənməsi işini də qurtaracaq və bina ətrafında abadlıq işlərinə başlayacağıq. Mən əminliklə deyə bilərəm ki, ağstafalıları intizarda qoymayacaq, fabrikin nəzərdə tutulan vaxtda istifadəyə verilməsini təmin eədəcəyik.

1.qxd 11.08.2017 14:12 Page 8

Heydər Əliyev Mərkəzində nikah mərasimi keçirildi



Ağstafa rayonu Heydər Əliyev Mərkəzinin Nikah zalında yeni ailə həyatı quran gənclərimizin rəsmi nikahlarının qeyd olunması üçün ən yüksək şərait yaradılmışdır. Növbəti belə tədbir Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş Müzəffər Bağırovun oğlu Əli Bağırovun nikah mərasimi olmuşdur.

Yeni ailə həyatı quran gənclər əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək Ulu Öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildirdilər. Mərasim iştirakçıları Heydər Əliyev Mərkəzinə ekskursiya etdikdən sonra mərkəzin Nikah zalında nikah aktının imzalanması mərasimi keçirildi.

Tədbirdə iştirak edən Ağstafa rayonu İcra hakimiyyəti başçısı aparatının məsul işçisi Əziz Məsmalıyev rayon rəhbərliyinin adından yeni ailə quran gəncləri təbrik edərək onlara ən xoş arzularını çatdırdı. Gənclər onlara göstərilən bu cür yüksək diqqət və qayğıya görə ölkə rəhbərliyinə dərin minnətdarlıq etdilər və öz nikah mərasimlərinin Heydər Əliyev Mərkəzində keçirilməsini həyatlarının ən xoş anları kimi xatırlayacaqlarını bildirdilər. Daha sonra xatirə şəkilləri çəkdirildi.

Kənd yollarının abadlaşdırılması davam edir

Ölkə başçısı möhtərəm prezidentimiz cənab İlham Əliyevin tapşırığı əsasında şəhər, qəsəbə, kənd yollarının abadlaşdırılması işi ölkəmizin hər yerində olduğu kimi, Ağstafada da uğurla davam etdirilir. Son bir neçə ildə bu istiqamətdə əsaslı işlər görülmüş, ən ucqar kəndlərə belə gedən yollar yenidən qurulmuş, abadlaşdırılmışdır. Ötən müddətdə rayonun ərazisində 200 km-ə yaxın yolda abadlıq işləri görülmüş, keyfiyyətli asfalt örtük salınmışdır.

Bu gün rayonda bü məqsədyönlü iş uğurla davam etdirilir. Köhnə Qışlaq, Köçvəlili, Qarayazı, Köçəsgər, Qırlı, Aşağı Kəsəmən, Zəlimxan kənd yollarında aparılan abadlıq işləri diqqəti cəlb edir. Bir neçə gündür ki, uzunluğu 13 km-dən çox olan Ağstafa, Aşağı Kəsəmən, Zəlimxan yolunun əsaslı təmirinə başlanılmışdır. Ötən müddətdə bu yolda xeyli iş görülmüş, yolların xırlanması işi demək olar ki, yekunlaşdırılmışdır.

Rayon icra hakimiyyətinin müvafiq şöbəsindən əməkdaşımıza bildirdilər ki, Ağstafa-Aşağı Kəsəmən-Zəlimxan yoluna yaxın günlərdə asfalt örtüyün sallınması işinə başlanılacaqdır.

Məktəbimizin müəllim və şagird kollektivləri yay tətilinə buraxılsalar da yenə bu tədris ocağı ilə əlaqə saxlayırlar. Bunun bir yaxşı cəhəti ondn ibarətdir ki, rayonun ictimai tədbirlərinə cəlb edilir, fəallıqlarını göstərirlər. Məktəbdəki görüşlərdə yay təəssüratlarından söhbət açılır, ali və orta ixtisas məktəblərinə verdikləri imtahandan, tətil günlərində hansı məkanlarda olduqlarından danışırlar. Neçə ildir ki, bu vərdiş ənənəyə çevrilmişdir.

Yay tətilində gördüyümüz işlər

Bu tətil günlərində məktəbimizdə cari təmir işlərinə də start verilmişdir. Biz əvvəllər cari təmiri rayon icra hakimiyyətinin köməkliyi ilə daxili imkanlar hesabına aparırdıq. İndi isə rayon rəhbərliyinin diqqət və qayğısı sayəsində dövlət hesabına təmir edilir. Fürsət düşmüşkən kollektivimiz adından rayon rəhbərliyinə dərin minnətdarlığımızı bildirirəm. Onlara çoxsağolun deyirəm.

Məktəbimiz böyükdür. Yeni dərs ilində məktəbə 469 nəfər şagird qədəm qoyacaq, təhsillərini davam etdirəcəkdir. 22 sinif olmaqla tədrisə başlayacağıq. Hələlik binanın dam örtüyü dəyişdirilir. Təmiri 6 saylı ərazi maliyyə hesablaşma mərkəzi aparır. Qeyd edim ki, məktəbindam örtüyü 1984-cü ildən bu yana dəyişdirilməmişdir. Örtüyün br neçə yerindən damırdı. Yağış yağanda sinif otaqları suya batırdı. Dam örtüyündən sonra əlavə vəsait ayrılarsa sinif otaqları, bir neçə sinif döşəmələri təmir olunacaqdır.

Yayın isti günləri davam edir. Məktəbin həyətindəki yaşıllığı qorumaq üçün əlimizdən gələni edirik. Yenə rayon rəhbərliyinin adını çəkmək istəyirəm. Onların sayəsində məktəb üçün bol sulu artezian qazılmışdır. Onun suyu vasitəsilə ağaclar, yaşıllıqlar suvarılır, baxımlı görkəmə salınır. Havalar sınana kimi suvarma işini mütəmadi davam etdirəcəyik.

Bir neçə kəlmə də ötən tədris ilinin nəticələrindən söhbət açmaq istəyirəm. Ötən il 34 nəfər şagirdimiz müstəqil həyata qovuşdu. Onların 23 nəfəri ali və orta ixtisas məktəblərinə sənəd vermişdir. İlkin məlumatlarımıza görə 20 nəfərə yaxın şagirdimiz tələbə adına layiq görülmüşdür. Bu nəticə əvvəlki illərdəkindən artıqdır. Pedaqoji kollektivimizin zəhməti bəhrə vermişdir. Birgə səylə məktəbimizin şərəfi qorunub saxlanılmışdır. Hər bir müəllimin xüsusi əməyi olduğu üçün hamısına gözaydınlığı verirəm. Yeri gəlmişkən onuda xüsusi tərzdə vurğulayım ki, diaqnostik qiymətləndirmədə müəllimlərimizin hamısı fəal iştirak etmiş, qarşıya qoyulan vəzifənin öhdəsindən layiqincə gəlmişlər.

Ümid edirəm ki, hər il olduğu kimi, bu cari tədris ilinə də yaxşı əhvalla, sağlam təfəkkürlə və fiziki sağlamlıqla başlayacaq, təlim-tərbiyə işlərini davam etdirəcəyik. Dövlət siyasətinin təhsil sistemində başlıca məqsədi məhz bu keyfiyyətlərdən ibarətdir. Bunu yerinə yetirmək, qarşıya qoyulan məqəsədə çatmaq isə biz pedaqoqlardan asılıdır.

Rahilə Mansırova,
Qaçaq Kərəm kənd orta məktəbin direktoru

Bildiriş

Elektron qaimə-fakturanın tətbiqi barədə

Hörmətli vergi ödəyiciləri!

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

- ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən 2017-ci il 1 aprel tarixdən;
- Bütün digər vergi ödəyiciləri tərəfindən 2018-ci il 1 yanvar tarixdən etibarən elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edillir.

Elektron qaimə-faktura "Onlayn rejimdə" Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az <http://www.e-taxes.gov.az>) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya "Lazımi proqramlar"dan istifadə edilməklə "Oflayn rejimdə" tərtib edildikdən və elektron imza (o cümlədən Asan imza) vasitəsi ilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların 10 faizi
- ikinci dəfə yol verdikdə 20 faizi
- üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tovsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az <http://www.taxes.gov.az>), çağrı mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası
Vergilər Nazirliyi

Etibarsız sayılır

Köçəsgər kənd sakini, mərhum Rəhimova Badı Murğuz qızının adına verilmiş 77 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Soyuq Bulaq qəsəbə sakini, mərhum Musayev Musa Alı oğlunun adına olan 71 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Vurğun qəsəbə sakini İbrahimova Nurəngiz İmran qızının adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN 151 nömrəli (kod 50202018) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Köçəsgər kənd sakini, mərhum Ələkbərov Alim Musa oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN 592 nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Zəlimxan kənd sakini Nəbiyeva Məlahət Məhəmməd qızının adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-277 nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR:

İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
"Ağstafa" qəzetinin jurnalist kollektivi

Şəadətnamə № 308

Redaksiya heyəti

L.Eyyubova, L.İsayeva, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan:
Ağstafa şəhəri,
Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000